# Torpaq uğrunda ölən varsa, Vətəndir!



***Ötən il Azərbaycanın yeni tarixinə qızıl hərflərlə həkk olunan unudulmaz hadisələr baş verdi. Ona görə unudulmaz hadisələr deyirik ki, Vətən müharibəsinin başlama səbəbləri, başlanması və bitməsi, alınan nəticələr haqqın nazilsə də, üzülmədiyini bir daha göstərdi. 27 ildən çox düşmən tapdağında qalan ərazilərimiz bir-birinin ardınca azad edildi. Qədim xalq dastanımız olan "Kitabi-Dədə Qorqud"da deyildiyi kimi, düşmən basıldı.***

## Müqəddəs amallarla…

Birinci Qarabağ müharibəsində ermənilərin qorxulu röyasına çevrilən, "Yəhudi buterbrodu" kimi məşhurlaşan dəqiq atəşləri ilə düşməni tar-mar edən şəhid milli qəhrəmanımız Albert Aqarunovun layiqli davamçıları İkinci Qarabağ müharibəsində öz əməlləri ilə tarix yazdılar. 44 günlük müharibədə fədakar tankçılarımız öz manevr və dəqiq zərbələri ilə düşmənin başına, sözün həqiqi mənasında, bəla olmağı bacardılar. Onların arasında şəhid Rufiz Budaqovu qeyd etmək vacibdir. Əlbəttə, onun haqqında yazmaq bizə nə qədər çətin olsa da, mənəvi borc məsələsidir. Düşmənin 27 il sanki "lövbər saldığı" yurd yerlərimizdən çıxarılmasında, qovulmasında, məhv edilməsində minlərlə əsgərimiz, zabitimiz öz canı- qanı bahasına tarix yazdı. Rufiz də onlardan biri kimi əbədiləşdi. Rufizin üzərində böyük məsuliyyət var idi. Çünki o, həm döyüşçü kimi fiziki göstəricilər ortaya qoymalı, həm də ağıl, bilik, dərrakə tətbiq edərək mükəlləf edilir. Rufizin də döyüş yolu bura qədər idi və şəhadətə qovuşduğu məkana qədər yerinə yetirdiyi missiya düşmənin başına vurulmuş elə bir zərbə idi ki, yağılar bunu asanlıqla qaldıra bilməyəcəkdi və bilmədi də. Çünki Rufiz və şəhid olmuş döyüş yoldaşlarından sonra ordumuz həmin istiqamətdə ancaq irəli getdi və Azərbaycanın üçrəngli bayrağını işğal altında qalmış torpaqlarımıza yenidən sancdı. Bir sözlə, ordumuz Rufizin timsalında bütün şəhidlərimizin qanını, şanını yerdə qoymadı…

## Ömürlüyə bir nəzər

Rufiz Şirzad oğlu Budaqov 12 iyul 1977-ci ildə Ordubad rayonunun Tivi kəndində ziyalı ailəsində anadan olmuşdur. 1994-cü ildə orta məktəbi bitirmişdir. Hələ məktəb illərindən yüksək əxlaqi keyfiyyəti, vətənpərvərliyi, davranışı, fiziki cəhətdən hazırlığı ilə məktəb rəhbərliyinin, müəllimlərin, sinif yoldaşlarının hörmətini qazanmışdı. Erməni qəsbkarlarının torpaqlarımızı işğal etməsi hamı kimi, Rufizin də həyatına dərin təsir etmişdi. Vətənə məhəbbət, erməni vandallarına nifrət torpaqlarımızın işğaldan azad edilməsi, günahsız soydaşlarımızın qisasını almaq arzusu bütün vətənpərvər gənclər kimi Rufizin də hərbçi olmasına gətirib çıxardı. Buna görə də o, həqiqi hərbi xidmətdə olduqdan sonra 1998–1999-cu illərdə Tank Komandirləri Məktəbində hərb sənətinə yiyələnir. 1999-cu ildən gizir rütbəsi alan Rufiz 2004-cü ilədək tank komandiri vəzifəsində çalışır. 2004-cü ildə səhhəti ilə əlaqədar təqaüdə göndərilsə də, qəlbindəki Vətən sevgisi 2012-ci ildə tam müalicədən sonra onu yenidən hərb sahəsinə geri qaytarır. 2016-cı ilin Aprel döyüşlərində fəal iştirak edir. Göstərdiyi igidliyə görə yoldaşları arasında "Alov" ləqəbli döyüşçü kimi sevilir, "Qüsursuz xidmətlərinə görə" 3-cü və 2-ci dərəcəli medallarla təltif olunur. İkinci Qarabağ müharibəsi başlananda şiddətli döyüşlərə qatılaraq düşmənə ağır zərbələr vurur və qəhrəmancasına şəhid olur. Cənazəsi minlərlə insanın iştirakı ilə İkinci Fəxri xiyabanda dəfn olunur.



dəqiq zərbələrlə düşməni məhv etməli idi. Rufiz Azərbaycan Ordusunun vaxtilə ən çox itki verdiyi, ən gərgin döyüşlərin getdiyi yerlərdən birində – Murovdağ istiqamətində döyüşlərə qatılmışdı. Vaxtilə 2 mindən çox döyüşçümüzün şəhid olduğu, torpağa qarışdığı Murovdağ əməliyyatı yenidən başlanmışdı… Amma bu dəfə fərqli şəkildə. Baxmayaraq ki, düşmənin güclü müdafiə sistemləri əvvəlkilərdən də üstün formada orada cəmləşmişdi. Lakin bu dəfə o sistemlər mütləq yarılmalıydı. Füzulideki beton tunellər, maneələr illərə dayanan və hər il keçilməsi daha da çətinləşdirilən müdafiə xətləri, Kəlbəcərdə təbii istehkamlar sayılan hündür dağlar, sərt qayalar, dərin dərələrlə yanaşı, bütün Qarabağ ərazisində müdafiə xətlərini yarmaq heç də asan deyildi. Bu baxımdan, Rufizgilin əsas işi ermənilərin bütün gücü ilə qarşılarına çıxardığı qüvvələri darmadağın etmək və müdafiələrini yarmaq idi. Belə də oldu. Rufiz və dəstəsi ən ağır döyüşlərin öhdəsindən gələrək düşmən səngərlərinin çoxluq təşkil etdiyi Kəlbəcər müdafiə xəttinin yarılmasında mühüm xidmətlər göstərir, onları böyük təlafata uğradaraq irəli gedirlər. Həmin günlərdə televiziyalarımız düşməndən ələ keçirilmiş hərbi qənimətləri, onlardan azad edilmiş torpaqlarımızı nümayiş etdirirdi. Hərbçilərimizin getdiyi yolları, tankların, hərbi konvoyların üzərində gedən qələbə ruhlu əsgərlərimizi görəndə sevincdən ürəyimiz dağa dönürdü. Lakin belə bir məqamda şəhidlərimizin xəbərlərini də eşitmək, özümüzü toxtaq tutmağımıza baxmayaraq, bizi daxilən sarsıdırdı. Bu xəbərlərin içində Rufizin də adı var idi. Düşmən cəbhəsinin yarılmasında müstəsna xidmətlər göstərən, torpağı müqəddəs bilib ölümün üzərinə gedən Rufiz Budaqovun…

Ağır və tükürpədici döyüşlərdə onun da tankı düşmən tərəfindən vurulmuşdu. Əlbəttə, Rufiz şəhid olmazdan öncə öz missiyasını tam yerinə yetirmişdi. Onsuz da şəhidlərin hərəsi bir missiya daşıyıcısı olur və bir yerə qədər Tanrı tərəfindən

Ailəli idi. Odan iki qız, bir oğul yadigar qaldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 9 dekabr tarixli sərəncamına əsasən, "Qarabağ" ordeni ilə, 2020-ci il 15 dekabr tarixli Sərəncamına əsasən, "Vətən uğrunda" medalı ilə təltif edilib. Bu günlərdə Bakı Şəhər İcra Hakimiyyəti başçısının sərəncamına əsasən şəhərin Binəqədi rayonu ərazisində yerləşən küçələrdən biri şəhid tankçımızın adına əbədiləşdirilib.

Əlbəttə, bütün bunlar Rufizi bizə qaytarmasa da, onu sevənlər üçün, o cümlədən şəhidlərimizin adlarının əbədiləşdirilməsi, onların etdikləri misilsiz qəhrəmanlıqların mükafatlandırılması baxımından qismən də olsa, təsellidir.

## O, "təpədən-dırnağa" milli ruhda böyümüşdü

Rufiz haqqında şəhidimizin dayısı, Bakı Dövlət Universitetinin müəllimi, hüquq elmləri üzrə fəlsəfə doktoru, Birinci Qarabağ müharibəsinin iştirakçısı Səftər Rəhimli ilə söhbətləşdik. O dedi: "Rufizlə yaş fərqimiz çox deyil, demək olar ki, bir yerdə böyümüşük. O, böyük bacım Bəyim xanımın oğludur. Rufiz doğulanda mən ilk dəfə dayı olmuşam. Ailələri milli ənənələrə çox bağlıdır. Mühit bir insanın yetişməsi üçün çox önəmlidir. Rufizin mühiti təpədən dırnağa qədər milli olmuşdur. Ona görə də bu hisslər onun canına, qanına yerimişdi. Həmişə deyərdi ki, hərbi sahəni seçməsində mənim və qardaşlarımın, yəni, dayılarının böyük rolu olmuşdur. Biz – Rufizin dayıları dörd qardaş olaraq Birinci Qarabağ müharibəsində müxtəlif bölgələrdə savaşın qaynar nöqtələrində olmuşuq. Mən döyüşdə yaralandım və qısa müddət sonra yenidən hərbçi yoldaşlarımın yanına qayıtdım. Qardaşım Heydərin idarə etdiyi BMP vurulmuşdu və o, yaralanmışdı. Sağaldıqdan sonra yenidən öz ərizəsi ilə müharibəyə qatıldı və ikinci dəfə ağır yaralandı. Hazırda Qarabağ müharibəsi əlilidir. Hətta bir haşiyə çıxım ki, qardaşım Heydər ikinci dəfə yaralananda onu Ağdam xəstəxanasının morquna gətirirlər. Xəstəxana həkimi Habil Şirinov siyahıya baxir ki, həlak olanların adları arasında Heydər Rəhimovun da adı var. Heydər həmin həkimin qardaşı Kamil Şirinovla birlikdə döyüşürmüş və ona görə ailələri də onu yaxından tanıyırdı. Beləcə, həkim morqa enir, bir-bir yoxlama apararaq, Heydərə çatır və görür ki, bədəni istidir, lakin özündə deyil. Həkim təcili onu oradan çıxardır və müalicəyə başlayır. Qardaşım tez bir zamanda Gəncəyə, daha sonra Bakıya gətirilir. Az müddətdən sonra Heydər özünə gəlir. Yəni, deməyim odur ki, şəhidimiz Rufizin evdə eşitdiyi mövzular, söhbətlər bunlar idi. Bütün bunlar onun gələcək hərbçi və düşmənə qarşı barışmaz şəxsiyyət kimi yetişməsində önəmli rol oynadı.

Hərbi hissə komandirinin dediyinə görə, Rufiz tank komandiri kimi böyük təcrübəyə malik idi və 2016-cı il Aprel döyüşlərində şücaətilə özünü sübut etmişdi. 2020-ci il Vətən müharibəsində o ən qaynar nöqtələrdə döyüşdü. Şəhid olmazdan bir gün öncə danışdıq. Onda müharibənin ilk günləri idi…Sonda sadəcə bir şey söylədi ki, burada ikinci yol yoxdur. Haqqınızı halal edin, bir saat tez, bir saat gec ölümlə üz-üzəyik.. Yaxın dostlarının şəhid olduğunu bildirdi. Təbii ki, bu sözlərini ailəsi ilə bölüşmədim. Bir gün sonra zəng gəldi ki, başınız sağ olsun. Rufizin tankı vurulub və o, şəhid olub. Allah şəhidlərimizin ruhunu şad eləsin".

Təsirlidir… Şəhidlərimizin olumla ölüm arasında saniyə qədər məsafədə qaldıqlarını bilə-bilə düşmənin üzərinə getmələri, sinələrini bu torpaq yolunda sipər etmələri, həqiqətən, ibrətamizdir. Ona görə deyirlər ki, ölümün ən gözəli şəhidlikdir. Çünki mahiyyətində bir amal, bir əqidə yolçuluğu var… Müqəddəs Qurani-Kərimdə Rəbbimiz buyurur ki, şəhidlər ölmür, onlar diridirlər, fəqət biz bunu anlamırıq. İndi şəhidliyə həm dünyəvi, həm də dini-mənəvi nöqteyi-nəzərdən baxdıqda bu məqamın nə qədər ucalığı gün kimi aydın olur. Bu igidlərimizin torpaqlaşması, vətənləşməsidir desək, yanılmarıq. Torpaq, yurd, Vətən onu cani-könüldən qucaqlayıb qoruyanların, ona qarışanların, qovuşanların sayəsində vazkeçilməz olur.

Necə ki, böyük Məmməd Araz deyib:

*Ey daşlaşan, torpaqlaşan,*
*ulu babam!*
*Bu günümdən dünənimə*
*uzaqlaşan ulu babam!*

Bəli, tariximiz bu şəhidlərin sayəsində yaranır, ataləşir, babalaşır, qədimləşir və nəhayət əbədiləşir!

Beləliklə, Rufiz Budaqovun timsalında şəhidlərimizin intiqamı alındı. 8 noyabrda Şuşa şəhəri düşmən işğalından azad edildi və noyabrın 10-da Ermənistan Azərbaycan qarşısında kapitulyasiyaya imza atdı. Rufizin də şəhid olduğu Kəlbəcər öz sahibinə qayıtdı. Artıq qələbəmizin bir ili tamam oldu. Ən böyük təsəllimiz odur ki, şəhidlərimizin ruhları şaddır. Şaddır ki, onların zəhməti yerdə qalmadı. Şəhid olduqları bala Vətən, ana Vətənə qovuşdu…

***Anar TURAN, "Xalq qəzeti"***